## SOSİOLOGİYA

**37.21.51**
**UOT.316.42**

# VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLMUŞ UŞAQLAR PROBLEMİ SOSİAL İŞ KONTEKSTİNDƏ

**N.X.NƏCƏFOVA**
***Bakı Dövlət Universiteti***
***natavannadjafova@rambler.ru***

*Məqalədə valideyn himayəsindən məhrum olmuş uşaqlar problemi sosial iş kontekstində araşdırılır. Hazırkı dövrdə Azərbaycan Respublikasında valideyn himayəsindən məhrum olmuş uşaqlara göstərilən qayğı, sosial xidmət siyasəti və bu siyasətin əsasını təşkil edən qanunvericilik aktları, bu istiqamətdə icra olunan layihə və proqramlar nəzərdən keçirilir.*

**Açar sözlər:** valideyn himayəsindən məhrum olmuş uşaqlar, sosial siyasət, ailə, uşaq evləri, sosiallaşma

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar problemi sosial iş nəzəriyyəsində xüsusi əhəmiyyətə malikdir. Uşaqlar cəmiyyətin gələcəyi hesab olunur. Bu ifadə heç də təsadüfi, səbəbsiz işlədilmir. Gələcəyimiz hazırda böyüməkdə olan uşaqların necə formalaşdırılmasından asılıdır. Cəmiyyətdə uşaqlara göstərilən diqqət və qayğının artırılması mümkün neqativ halların qarşısının alınması üçün olduqca önəmlidir. Uşaqların tərbiyə edilməsi əsasən valideynlərin üzərinə düşən böyük məsuliyyətdir. Lakin valideynlər heç də həmişə bu işin öhdəsindən lazımınca gələ bilmirlər. Natamam ailələrdə himayədə yaşayan uşaqlar daha çox çətinliklərlə üzləşirlər.

Müasir dövrdə müxtəlif səbəblərdən bəzi ailələrin dağılması prosesi baş verir. Erkən nikah, qeyri-rəsmi nikah və s. nəticəsində yaranan problemlərdən də ən çox əziyyət çəkənlər məhz uşaqlar olurlar. Belə vəziyyətdə uşaqlar ən böyük faciə təşkil edən bioloji ailələrini itirmək riski ilə üz-üzə dayanırlar.

Valideyn himayəsindən uzaq düşmüş uşağın, yeniyetmənin və gəncin xəyallarında hər zaman doğma, isti, onu himayəsinə alacaq bir evə ehtiyacı var. Bu ev onlara müxtəlif yerlərdə təqdim edilir, ancaq bir çox hallarda bu yerlər

onların normal inkişafına, dünyagörüşünün elmi əsaslarda formalaşmasına bir o qədər də əlverişli imkan yaratmır, onlar üçün ailə qayğısını əvəz etmir.

Uşaq evləri atılmış, ata-ana qayğısından məhrum olmuş uşaqların sığınacaq yeridir. Uşaqlar internat evlərinə müxtəlif səbəblərdən düşürlər. Bəziləri valideynlərini itirdiyinə görə, bəziləri isə ata və anasının məsuliyyətsizliyi ucbatından doğma ocağından qoparılaraq uşaq evlərinə atılırlar.

Valideyn himayəsindən məhrum olmuş uşaqların uşaq müəssisələrinə düşmə səbəblərini aşağıdakı kimi təsnif etmək olar:

- Valideynlərdən birinin və ya hər ikisinin vəfatı;
- valideynlərin boşanması;
- ailələrin imkansızlığı, sosial vəziyyətin aşağı səviyyədə olması;
- ailədə zorakılıq təzahürləri. Uşaqların böyük qismi ailədə etinasızlığa, psixoloji, fiziki və ya cinsi zorakılığa məruz qaldıqlarına görə himayə müəssisələrinə düşürlər;
- valideynlərin həbsxanada olması;
- valideynlərin valideynlik hüququndan məhrum edilməsi. Bu, yalnız məhkəmə yolu ilə ola bilər [3, 184].

Dövlət Statistika Komitəsinin məlumatına əsasən internat müəssisələrində valideynini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqların sayı müxtəlif illərdə müxtəlif olmuşdur [2]:

| | **1991** | **1996** | **2001** | **2006** | **2009** | **2010** | **2011** | **2012** | **2013** | **2014** |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| İnternat müəssisələrində təlim tərbiyə alan yetim və valideyn himayəsindən məhrum olan uşaqların sayı- cəmi | 955 | 839 | 2484 | 2441 | 1517 | 1228 | 1259 | 976 | 756 | 685 |
| o cümlədən: | | | | | | | | | | |
| körpələr evlərində | 150 | 96 | 107 | 59 | 42 | 55 | 43 | 8 | 1 | - |
| uşaq evlərində | 50 | 101 | 139 | 438 | 306 | 257 | 351 | 175 | 26 | 30 |
| sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəblərində | 90 | 105 | 280 | 280 | 212 | 147 | 162 | 134 | 115 | 163 |
| sağlamlıq imkanları məhdud uşaqlar üçün internat evlərində | 70 | 35 | 203 | 61 | 80 | 69 | 44 | 72 | 72 | 40 |
| ümumi təhsil internat məktəblərində | 595 | 502 | 1755 | 1603 | 877 | 700 | 659 | 587 | 543 | 452 |
| onlardan, valideynini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqlar üçün internat məktəblərdə | 505 | 293 | 368 | 330 | 415 | 409 | 398 | 373 | 414 | 389 |

Dövlət Statistika Komitəsinin məlumatına nəzər salsaq, son 25 ildə internat müəssisələrində təlim-tərbiyə alan yetim və valideyn himayəsindən məhrum olan uşaqların sayının müxtəlif olduğunu görərik. Belə ki, 1991-ci ildə

belə uşaqların sayı 955 idisə, 2001-ci ildə bu rəqəm pik həddə çataraq 2484 nəfər təşkil etmişdir (o cümlədən körpələr evlərində 107, uşaq evlərində 139 uşaq tərbiyə almışdır). Son 15 il ərzində isə internat müəssisələrində təlim-tərbiyə alan yetim və valideyn himayəsindən məhrum olmuş uşaqların sayı ilbəil azalaraq, 2014-cü ildə cəmi 685 nəfər təşkil etmişdir. Burada sözsüz ki, Respublikanın iqtisadi cəhətdən inkişafi, əhalinin fiziki, psixi vəziyyəti, vətəndaşların maddi durumunun yaxşılaşması böyük rol oynamışdır.

Uşaq evlərində böyüyən uşaqlarla valideyn himayəsində, ana qucağında boya-başa çatan uşaq arasında çox ciddi fərqlər müşahidə olunur. İnternat uşaqlarında əksər hallarda həm onlardan könüllü imtina etmiş valideynlərinə, həm cəmiyyətə, həm də bütün bəşəriyyətə qarşı kin-küdurət, aqressiya yaranır. Bu uşaqlar öz səhvini anlayıb onları yenidən ailəsinə qaytarmaq istəyən valideynlərini çox vaxt bağışlamaq istəmirlər. Onlarda ata və analarına qarşı nifrət formalaşır. Belə uşaqlar çox erkən yaşdan heç kəsə lazım olmadıqları, həyatlarının heç bir faydası olmadığı haqda düşünməyə başlayırlar. Müşahidələr göstərir ki, bu əhval-ruhiyyədə böyüyən uşaqlar yetkinlik yaşına çatdıqdan sonra içlərində bəslədikləri aqressiyanı konkret olaraq insanlara yönəldirlər. Bir çox hallarda isə bu uşaqlar tez böyüməyə can atırlar ki, uşaq evindən çıxdıqdan sonra valideynlərindən qisas alsınlar.

Məhz belə ailələrdən olan uşaqlara dəstək məqsədilə 2013-cü ilin aprelində Azərbaycanda ilk dəfə Bakı SOS Uşaq kəndində "Qısa Müddətli Qayğı" layihəsi (QMQL) adlanan yeni layihə fəaliyyətə başlayıbdır [1]. Layihənin yaradılmasında əsas məqsəd müxtəlif problemlərlə üzləşmiş ailələrə kömək etmək, onların övladlarını müvəqqəti yaşayış yeri və qayğı ilə təmin etməkdir.

Ailələrin düşdüyü vəziyyətin çətinliyindən asılı olaraq "QMQL"-da qalma müddəti 1-12 aya qədər müəyyən olunur. Yaxınları ilə görüşlərin davamlılığı vaxtı uşağın və ailənin xüsusi ehtiyaclarına görə fərqli ola bilər. Burada olan müddətdə hər bir uşaq üçün fərdi inkişaf planı hazırlanır. Psixoloq və pedaqoqlar öz işlərini fərdi inkişaf planına uyğun qururlar. Qalma müddəti başa çatdıqdan sonra uşaq ailəsinə qaytarılır. Əgər uşaq öz ailəsi ilə yenidən birləşə bilmirsə, müvafiq dövlət təşkilatları tərəfindən mümkün olan qayğı formaları araşdırılır və müəyyən olunur.

SOS Uşaq Kəndində kimsəsiz və valideyn himayəsindən məhrum olmuş uşaqlara göstərilən qayğı onların bu müəssisəyə qəbul olunduğu gündən müstəqil həyata atılacaqları günədək davam edir. Müəyyən yaş həddinə çatdıqda isə onlar Gənclər Evinə köçürülürlər [1].

Gənclər Evi SOS Uşaq Kəndinin struktur bölməsidir. Bu bölmənin yaradılmasında əsas məqsəd uşaqları müstəqil həyata hazırlamaq, onların sosial və həyat qabiliyyətlərini inkişaf etdirmək, peşə seçmək üçün onlara hərtərəfli şərait yaratmaqdır. Bu uşaqlar daim Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə əhatə olunurlar. Onlar müstəqil həyata atıldıqdan sonra da dövlətin qayğısından bəhrələnə bilərlər.

Dövlətimiz uşaqların ailə mühitində böyüməsi və tərbiyə almasına xüsusi önəm verir. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva humanizm və insanpərvərlik prinsipləri baxımından yardıma ehtiyacı olan uşaqlara qayğının vacibliyini xüsusilə diqqətə çəkmişdir: "Fikrimcə, uşaqlıq dövrü insan həyatının ən rəngarəng, ən yaddaqalan və ən xoşbəxt dövrüdür. Məhz bu illərdə, bu dövrdə insanın gələcək taleyinin, onun fiziki və mənəvi sağlamlığının, vətəndaş mövqeyinin, insani cəhətlərinin əsası qoyulur. Əlbəttə, hər şəxsin formalaşmasında ailənin, ailə mühitinin, ailə tərbiyəsinin rolu əvəzsizdir»[1].

Uşaqların ailə mühitində böyüməsi və tərbiyə alması üçün dövlətimiz Avropada artıq geniş tətbiq olunan uşaqların ailələrə verilməsi (deinsitutlaşdırma) proqramını qəbul etmiş və bu sahədə bir sıra layihələr (günərzi mərkəzləri, ailə tipli kiçik qrup evləri, SOS-uşaq kəndləri və s.) həyata keçirmişdir. Ümumiyyətlə, Azərbaycanda kimsəsiz uşaqların müdafiəsində Heydər Əliyev Fondu və bir çox QHT-lər müxtəlif layihələr hazırlamışlar. Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı, UNİCEF və Avropa Komissiyası ilə birgə “Heç bir uşağı nəzərdən qaçırmayaq” layihəsinin 2-ci fazası Azərbaycanda həyata keçirilmişdir. Kimsəsiz uşaqların müdafiəsi və onların gələcək taleyi sahəsində, o cümlədən Save the Children (Uşaqların xilası) beynəlxalq təşkilatı, SOS Uşaq Kəndləri – Azərbaycan Assosiasiyası, Ümidli Gələcək Gənclər təşkilatı, Uşaq Hüquqları klinikası və s. QHT-lər bir sıra layihə və proqramlar həyata keçirirlər [1].

Məlumdur ki, bir neçə il bundan əvvəl dövlət proqramına əsasən uşaq evlərində və internatlarda yaşayan uşaqların ailələrə verilməsi prosesi həyata keçirilməyə başlayıbdır. Amma məsələ burasındadır ki, bu uşaqların ailələrə adaptasiyası olduqca ağrılı keçir.

Yuxarıda qeyd etdiyimiz kimi, uşaq evləri və internata verilən uşaqlar adətən öz valideynlərinə aqressiya ilə yanaşır və onları bağışlamırlar. Belə uşaqların valideynlərinə uyuşması, onlarla dil tapması, ümumiyyətlə, onları övladlığa götürmək istəyən ailələrlə doğmalaşması üçün bir reabilitasiya mərkəzi olmalıdır. Faktlar göstərir ki, hökumət xətti ilə ailələrə verilən uşaqların bir çoxu qısa müddətdən sonra evdən qaçmağa cəhd göstərir. Sosioloq və psixoloqlar da hesab edirlər ki, reabilitasiya mərkəzlərinin yaradılması vacib məsələdir. Bu reabilitasiya mərkəzləri uşaqların həyata hazırlanmasında, onların ictimai cəhətdən önəmli ailə vərdişlərinə yiyələnməsində böyük rol oynaya bilər.

Uşaq evlərində böyüyən uşaqlarda güvən problemi olur. Bu cür uşaqlar reabilitasiya keçmədiyi üçün uşaq evlərindən çıxdıqdan sonra cinayətə meyl göstərir, müxtəlif cinayətkar qruplaşmalarda təmsil olunurlar. Xarici təcrübədə uşaq evlərindən çıxan gənclərin sosial layihələr çərçivəsində yaşayışını təmin etmək üçün müxtəlif tədbirlər görülür. Məsələn, Sosial iş sistemi bir çox onilliklər ərzində yaxşı təcrübə toplamış çətin həyat situasiyalarına düşmüş vətəndaşlara müxtəlif fəaliyyət növləri ilə köməklik göstərən çoxşaxəli dövlət və qeyri-hökumət təşkilatları şəbəkəsi təşəkkül tapmışdır. Burada kimsəsiz və

baxımsız uşaqlara müasir sosial yardım sisteminin özəlliyi onun mərkəzləşmiş və çevik olmasıdır. Hər bir ştatda həmin kateqoriyadan олан vətəndaşlara sosial yardım olunması üçün bir neçə sosial proqram mövcuddur. Onlar ştatın qanunları və federal qanunvericiliklə nizamlanırlar. Bundan əlavə, bələdiyyələr səviyyəsində valideyn himayəsindən məhrum olmuş azyaşlılara sosial yardım proqramları da mövcuddur. Sosial yardımın bu modeli xüsusi bölgələrdə konkret vəzifələrin daha asan həllinə imkan verir.

ABŞ-da erkən uşaqlıqdan başlayaraq yetkinlik yaşına çatmayan vətəndaşlara hərtərəfli yardım edən xüsusi agentliklərin fəaliyyəti geniş yayılmışdır. Uşağın, konkret olaraq düşdüyü vəziyyətdən asılı olaraq, dörd proqramdan biri tətbiq oluna bilər:

- qarşıya qoyulmuş məqsədə nail olmaq üçün yardımın göstərilməsi;
- adaptasiya;
- inteqrasiya;
- qeyri-adi situasiyalarda intensiv yardım [5, 22].

Birinci proqram gənclərin peşə bilikləri əldə etməsinə, əsas sosial normalara, mədəni dəyərlərə yiyələnməsinə yardım etmək məqsədi daşıyır.

İkinci proqram sürətlə dəyişən sosial şəraitə gənclərin uğurlu adaptasiyasına istiqamətlənmişdir.

Üçüncü proqram müxtəlif etnik və mədəni köklərə malik gənclər arasında əlaqənin yaranmasına xidmət etmək məqsədi daşıyır. Bu proqram həmçinin gənclərin işlə təmin olunmasını da nəzərdə tutur.

Dördüncü proqram müxtəlif deviasiyası olan, məsələn, cinayət törətmiş və ya inkişafdan geri qalan yeniyetmələrə istiqamətlənmişdir. Bu proqramın məqsədi adi terapiya və ya reabilitasiya tədbirləri ilə yanaşı, polis məntəqələrində yeniyetmələr üçün xüsusi bölmələrin təşkil olunmasını, cinayətkar yeniyetmələrin məhkəməsinin keçirilməsini, mövcud reabilitasiya mərkəzlərinə və psixiatrik müalicə müəssisələrinə yardım olunmasını təmin etməkdən ibarətdir.

ABŞ-da insanların ətraf mühitə və cəmiyyətə təsir etməsinə inanmaq lazım olduğunu, bununla da özünün yaradıcı potensialının reallaşmasına şərait yaradaraq kimsəsiz gənclərə sosial yardım edən bütün proqramlar konseptual nəzəri fərziyyələrdən çıxış edir [4, 256-257].

Ölkəmizdə də dövlət müəssisələri lazımi qayğını təmin etmək üçün cox iş görürlər, lakin ev istisini və qayğıkeş valideynlərin nəvazişini heç bir şey əvəz edə bilməz. Bu gün başlıca məqsəd uşaqların mümkün dərəcədə öz bioloji valideynləri ilə bir yerdə qalmasını təmin etməkdir. Bu mümkün olmadığı təqdirdə, himayədar ailə qayğısı və övladlığagötürmə optimal alternativlər kimi nəzərdən keçirilir. Lakin bəzi hallarda uşaqlar ağır formada əqli və fiziki əlillikdən əziyyət çəkirlər və onların bir çox xüsusi xidmətlərə ehtiyacları vardır və belə olduğu halda ailəyönümlü mühiti təmin edən, kiçik sayda uşaqları əhatə edən evlərin yaradılması ən münasib variantdır.

Azərbaycan 30 mart 2004-cü il tarixdən "Ölkələrarası övladlığagötürülmə ilə bağlı Uşaqların Müdafiəsi və Əməkdaşlıq haqqında" Haaqa Konvensi-

yasına qoşulubdur [8]. Azərbaycan sözügedən beynəlxalq Konvensiyaya qoşulduqdan sonra və ölkə prezidentinin 2007-ci ildə imzaladığı müvafiq fərmanla ölkələrarası övladlığagötürmə ilə bağlı bütün səlahiyyətlər Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsinə verilibdir. Komitə Konvensiyadan irəli gələn məsələləri yerinə yetirir və ölkələrarası övladlığagötürmə ilə əlaqədar digər dövlət orqanları və təşkilatların fəaliyyətini əlaqələndirir. Bu halda ölkələrarası övladlığagötürmə ilə bağlı bir sıra qanunvericilik aktları əsas götürülür. Bunlar Azərbaycan Respublikasının Konstitusiyası, Ailə Məcəlləsi və Mülki-Prosessual Məcəllədir. Bundan əlavə, "Ölkələrarası övladlığagötürmə ilə bağlı əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə hüquqi yardım göstərən orqanların akkreditasiyasının təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin qərarı, "Valideyn himayəsindən məhrum olan və övladlığa götürülən uşaqların uçot Qaydaları", həmçinin, "Uşaqları övladlığa götürməyi arzu edən şəxslərin uçot Qaydası" və "Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların övladlığa götürülməsini arzu edən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçot qaydasının təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin müvafiq qərarları ölkələrarası övladlığagötürmədə əsas sənəd hesab olunur. Statistik məlumatlara görə, 2007-2014-cü illərdə Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsi tərəfindən 43 uşaq xaricə övladlığa verilibdir. Ötən il isə cəmi 4 uşaq başqa dövlətin vətəndaşı tərəfindən övladlığa götürülübdür. Xatırladaq ki, mövcud qanunvericiliyə görə, uşaqlar 18 yaşına qədər övladlığa verilə bilər. Ailə Məcəlləsinə görə, uşağın ailəyə verilməsi mümkün olmadıqda və ya qohumları tərəfindən övladlığagötürülmədən imtina edildikdə, Uşaq Komitənin razılığı və məhkəmə qətnaməsi ilə əcnəbilərə övladlığa verilir [6 ].

Əcnəbi ailəyə verilən uşaqlar birbaşa xarici dövlətin vətəndaşı kimi qeydiyyata alınır və onların Azərbaycan vətəndaşlığına xitam verilir. Məhkəmə qərarına əsasən, 3 il ərzində hər 6 aydan bir Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsinə uşaqla bağlı hesabatlar göndərilir. Xaricə övladlığa verilən uşaqlara nəzarəti akkreditasiyadan keçmiş, lisenziya almış təşkilatlar həyata keçirir. Belə təşkilatlar həm Azərbaycanda, həm də xaricdə mövcuddur. Azərbaycanda həmin təşkilatlar həm Ədliyyə Nazirliyindən, həm də Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsində qeydiyyatdan keçirlər. Komitə həmin təşkilatların fəaliyyətinə nəzarət edir, həmçinin uşaqların taleyi, onların durumu və sair məsələlərlə bağlı məlumatlar alır. Hər 6 aydan bir alınan məlumatlara videogörüntülər, fotoşəkillər, uşaqların sağlamlıq durumu, təhsili, sosial-psixoloji vəziyyəti və digər məlumatlar daxildir. Eyni zamanda, əgər ehtiyac yaranarsa, hesabatlar gecikərsə, Azərbaycanın xarici ölkələrdəki səfirlikləri və konsulluqları vasitəsilə uşaqların taleyi ilə maraqlanmaq olar. Yaxud Komitə nümayəndələri gedib hansısa ölkədə uşaqların vəziyyəti ilə bağlı yerindəcə araşdırma apara bilərlər. Onu da qeyd edək ki, mövcud qanunvericiliyə əsasən verilən məlumatların konfidensiallığı qorunmalıdır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rəsmisi E.Səfərov qeyd edib ki, 2007-ci ildən etibarən Azərbaycan hökuməti tərəfindən

ölkələrarası övladlığaverilmə ilə bağlı heç bir problem olmayıbdır: Onun fikrincə, "bu proses nəzarət altındadır. Əcnəbilərə verilən uşaqların hamısı haqqında məlumatımız var. Ölkələrarası övladlığagötürülmə ilə bağlı bütün səlahiyyətlər Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsinə verilib. Digər dövlətlərdə də bu işi həyata keçirən əlaqədar qurumlar mövcuddur. Komitə həmin qurumlarla əməkdaşlıq edir və onların vasitəsilə də uşaqların taleyi ilə maraqlanır. Həmin qurumlardan daxil olan məlumatlar təsdiq edir ki, ölkələrarası övladlığa verilən uşaqların hamısı sağlamdır, bu sahədə problem yoxdur. Düzdür, bəzi uşaqlar burda xəstə olub, amma övladlığa verildikləri ölkələrdə müalicə alaraq sağlamlıqlarına qovuşublar. Uşaqlar arasında əməliyyat olunanları da olub və hazırda sağlamdırlar" [6].

Beləliklə, yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə əqli və psixi inkişafdan geri qalmış uşaqların sosiallaşması prosesi bütövlükdə uğurla inkişaf edir və aşağıdakıları ehtiva edir:

- valideyn himayəsindən məhrum olmuş uşaqların mükəmməl proqramlar əsasında sağlamlığının qorunması və möhkəmləndirilməsi, habelə onlara sağlam həyat tərzinin aşılanması;
- uşaq kollektivində, eləcə də böyüklərlə qarşılıqlı əlaqənin, əməkdaşlıq və birlik münasibətlərinin formalaşması;
- uşaqlarda borc hissinin, ən mühüm həyati tələbat olan əməyə münasibətin, əməyin şəxsi və ictimai zərurət kimi başa düşülməsinin tərbiyə olunması;
- uşaqların çoxşaxəli yaradıcı, şəxsi və ictimai əhəmiyyətli fəaliyyətinin təşkili [7].

Araşdırmalara əsasən belə qənaətə gəlmək olar ki, valideyn himayəsindən məhrum olmuş uşaqlarla aparılan iş canlı, yaradıcı prosesdir. Bu proses bir tərəfdən həmin uşaqların həyat və fəaliyyətinin bütün tərəflərini əhatə edən elmi araşdırmaları dərinləşdirməyi, digər tərəfdən isə mövcud reallıqla şərtlənən xüsusiyyətləri diqqətlə nəzərə almağı tələb edir.

**ƏDƏBİYYAT**


1. "Azərbaycan müəllimi" qəz., 2013, 27 dekabr, № 30.
2. Azərbaycanın statistik göstəriciləri -2014. Bakı: Səda, 2014, 812 s.
3. Rəcəbli Hadi. Azərbaycan Respublikasının sosial müdafiə sistemi. Bakı: MBM, 2012, 408 s.
4. Социальная реабилитация. М.: ИНФРА-М, 2013, 320 с.
5. Исанова Н.Н., Яныкина А.Н. Основы социальной и социально-психологической работы по профилактике безнадзорности и правонарушений несовершеннолетних. Казань: 2002.
6. www. a24.az. / Xaricə Övladlığa Verilən Uşaqlarımızın Sonrakı Taleyi – Araşdırma – Eksklüziv /30 yanvar.
7. Миронычева Н. Н., Погонченкова Е. Н. Дети, лишенные родительского попечительства. www.idc.ulstu.ru/ipk/table/kluch/ 070711/1.doc
8. www.hafta.az /Uşaqların yerli vətəndaşlara övladlığa verilməsinin tərəfdarıyıq/ Tarix: 24.05.2013

## ПРОБЛЕМА ДЕТЕЙ, ЛИШЕННЫХ РОДИТЕЛЬСКОЙ ОПЕКИ В КОНТЕКСТЕ СОЦИАЛЬНОЙ РАБОТЫ

**Н.Х.НАДЖАФОВА**

**РЕЗЮМЕ**

В статье исследуется проблема детей, лишенных родительской опеки в контексте социальной работы. Вместе с тем, рассматриваются проекты и программы, законодательные акты, некоторые аспекты политики социальной службы Азербайджанской Республики, относительно детей, лишенных родительской опеки, составляющие основу данной политики.

**Ключевые слова:** дети, лишенные родительской опеки, социальная политика, семья, детские дома, социализация

## THE PROBLEM OF CHILDREN DEPRIVED OF FAMILY PROTECTION IN THE SOCIAL WORK CONTEXT

**N.Kh.NAJAFOVA**

**SUMMARY**

The problem of children deprived of family protection is explored in the social work context in this article. The attention toward the children deprived of parental care, social service policy, legislative acts that form the basis of this policy and the projects that cover this direction are analyzed as well.

**Key words:** children deprived of family protection, social policy, family, orphanages, socialization